Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 216 (1344) 23 noyabr - 24 noyabr 2016-cı il

# QƏD İMLİYİN VƏ MÜASİRLİYİN HARMONİYASI - ŞƏKİ FENOMENİ

### *Dağlar kimi əzəmətli...*

**Hər dəfə bu şəhanə gözəlliklə baş-başa qalanda sanki ilk dəfə görürmüş kimi heyrətini gizlədə bilmirsən. Həm də düşünürsən: görən bu dünyada təbiət gözəlliyi ilə şəhər biçiminin, şəhər əzəmətinin və qədimliyin bu dərəcədə bir-birini tamamlayan oxşar yerlər varmı, yoxmu?.. Mən əzəmətli gözəlliyin bu bitgin harmoniyasından, nağılvari gerçəkliklərindən çox söhbətlər açmışam, çox məqalələr yazmışam - heç doymamışam. Şəkinin tarixi keçmişindən, tarixi abidələrindən, özünəməxsus koloritindən necə həvəslə, fəxrlə danışmışam həmişə...**

...Və bəzən tam təsəvvür üçün mütləq səbəb də yaranır. Bu dəfə də belədir. Elə bir şəhərin, elə bir elin yaşamından, reallıqlarından söhbət gedir ki, bu, tamamilə vacibdir. Şimal-qərb bölgəsinin dayağı olan Şəki bütün mənalarda bir fenomendir. Özünün qədimliyi, tarixi qəhrəmanlıq səhifələri, dövlətçilik (xanlıq) ənənələri ilə. Həm də rayonda yaşayan insanların zəhmətsevərliyi, təbiətə, eynən elitar mədəniyyətə bağlılığı ilə.

Böyük Şəhər, Böyük Şəki neçə illərdir ki, bütün istiqamətlər üzrə daim inkişafdadır. Burada təbii ki, rayon rəhbərliyinin, xüsusilə işgüzar və ziyalı bir şəxs kimi tanınan başçı Elxan Usubovun fəaliyyəti xüsusi vurğulanmalıdır. Böyük rayonda çox işlər görülüb və görülməkdədir. Elə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun söylədiyi kimi: "Cənab Prezidentimizin apardığı uğurlu daxili və xarici siyasəti, regionların sosial-iqtisadi inkişafına müstəsna qayğı və diqqəti bizi daha yaxşı çalışmağa, yeni-yeni uğurlar qazanmağa ruhlandırır...".

Göstərilən yüksək etimadı layiqincə doğrultmağın ən düzgün yolu da məhz bu cür seçilir. İşgüzarlığın, sadəliyin, vətənsevərliyin məntiqi nəticəsi olaraq...



**"... Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir, daxildə proseslər müsbət istiqamətdə getmişdir, islahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız ulu öndərin siyasi xəttinə sadiqik, bu xətti davam etdiririk".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



### *İl sona doğru: reallıqlar və uğurlu nəticələr*

2016-cı il sona doğrudur. Bu il hər yerdə olduğu kimi Şəki rayonunda da Dövlət Proqramının icrası uğurla davam etmişdir. Bu yüksəliş ilin doqquz ayının yekunundakı nəticələrdə də öz əksini tapır. Bu yaxınlarda keçirilən ümumrayon yığıncağında Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov demişdir:

- 2016-cı ilin 9 ayında rayonumuzun sosial-iqtisadi inkişafının yekunları ilə tanış olmaq üçün konkret faktlara nəzər salaq. 2016-cı ilin 9 ayında ilkin hesablamalara görə faktiki qiymətlərlə 249 milyon 145 min manatlıq məhsul buraxılmışdır ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 102 faiz təşkil edir. Buraxılmış məhsulun 7 faizi dövlət, 93 faizi qeyri dövlət mülkiyyətinin payına düşür. Adambaşına faktiki qiymətlərlə 1355 manatlıq məhsul buraxılmışdır. Rayon üzrə orta aylıq əmək haqqı 256 manat olmuşdur . Bu əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur. 2016-cı ilin 9 ayında Şəki rayonunda 1622 yeni iş yeri açılmışdır ki,onların da hamısı daimi iş yerləridir. Qeyd etmək lazımdır ki, 01oktyabr 2003-cü ildən- 01oktyabr 2016-cı il tarixədək rayonda 17478 yeni iş yeri açılmışdır ki,bunun da 94,9 faizi daimi iş yerləridir. 2016-cı ilin 9 ayında Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 262 milyon 156 min manat olmuşdur. Əvvəlki ilin müvafiq dövrünə nisbətən əmtəə dövriyyəsinin həcmi 1,5 faiz artmışdır. Hazırda rayonumuzda 19 sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da 12-i kiçik müəssisədir. 2016-cı ilin 9 Şəki rayonunda istehsal və qeyri istehsal sahələrinin inkişafına yönəldilmiş investisiyanın 93,5 faizi tikinti- quraşdırma işlərinə sərf edilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 68,6 faiz təşkil edir.

Şəki Rayon Məşğulluq Mərkəzinə 2015-ci ilin 9 ayında 434 nəfər işaxtaran müraciət etmişdir. Hesabat dövründə 158 nəfər işə düzəlmişdir.

Şəkililər ölkə rəhbərinin əhalinin sosial müdafiəsi sahəsində yeritdiyi siyasəti yüksək qiymətləndirir, aztəminatlı əhali qrupuna göstərdiyi böyük diqqət və qayğının təzahürü kimi qəbul edir. Nazirlər Kabinetinin oktyabr ayının 7-də keçirilən geniş iclasında çıxış edən Prezidentimiz demişdir: " Bu il sosial sahədə bir çox uğurlu layihələr icra edilmişdir. 29 məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. Böyük yol layihələri , kənd yolları layihələri icra edilib . Bu çox gözəl göstəricidir. Bu bizim siyasətimizi göstərir. Çünki dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

Bəhs olunan dövrdə Şəkidə əmək haqları, pensiyalar və ünvanlı sosial yardımların əhaliyə çatdırılmasında, əhalinin sosial müdafiəsinin daha etibarlı şəkildə təmin olunması istiqamətində bir sıra işlər görülmüşdür. 2016-cı ilin 9 ayı ərzində Dövlət Sosial Müdafiə Fondunun Şəki şəhər şöbəsi tərəfindən 2158 ailənin 9928 ailə üzvünə 312 min 852 manat məbləğində ünvanlı dövlət sosial yardımı ödənilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 11,1 faiz çoxdur. Şəki rayonu üzrə hər bir ailə üzvünə təyin edilən Ünvanlı Dövlət Sosial Yardımın orta aylıq məbləği 32 manat , hər ailəyə düşən orta məbləğ isə 145 manat təşkil etmişdir. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə hər ailə üzvünə düşən məbləğin 8,1 faiz , hər ailəyə düşən məbləğin 10,3 faiz artımı deməkdir.

**Dövlət Sosial Müdafiə Fondunun Şəki Şəhər Şöbəsi 2016-cı ilin 9 ayında 25928 nəfər əmək pensiyaçısına xidmət göstərmişdir.Həmin pensiyaçılardan 16174 nəfəri yaşa görə ,8072 nəfəri əlilliyə ,1682 nəfəri isə ailə başçısını itirməyə görə pensiya alanlardır. Dövlət Sosial Müdafiə Fondunun Şəki şəhər şöbəsi üzrə pensiyanın orta aylıq məbləği 170 manat təşkil edir ki, bu da 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə 6, 3 dəfə artım deməkdir.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ